Kapital Bank
BİRİNCİ BANK

mastercard

# BirBank-da Mastercard/Maestro kartları ilə NFC ödənişlərdə əlavə məbləğ qazanmaq imkanı

1. BirBank-da Mastercard/Maestro kartları ilə NFC ödənişlərdə əlavə məbləğ qazanmaq imkanından (bundan sonra: kampaniya) NFC ödənişləri dəstəkləyən smartfonları olan və "Kapital Bank"a məxsus istənilən növ Mastercard/Maestro kartları olan BirBank istifadəçiləri yararlana bilər.

2. Kampaniya 8 aprel – 8 iyun 2021-ci il tarixləri aralığında (hər iki gün daxil) olmaqla 2 ay ərzində keçərli olacaq

3. Kampaniya şərtlərinə əsasən, müştərilər "Kapital Bank"a məxsus istənilən növ Mastercard/Maestro kartları ilə BirBank-da edəcəkləri istənilən 5 AZN və ya daha yuxarı məbləğdə NFC ödənişlərə görə əlavə məbləğ qazana biləcəklər. Belə ki kampaniya müddətində müştərinin etdiyi ilk 5 NFC ödənişdə əlavə 1 AZN balansına qayıdacaq. Edilən 5-ci NFC ödənişdə isə müştəri 1 AZN-dən əlavə olaraq 5AZN də qazanacaq (cəmi 6 AZN).

4. Ümumilikdə, müştərinin BirBank-da olan hər bir Mastercard/Maestro kartına görə maksimum 5 (beş) NFC ödənişə görə əlavə məbləğ qazanmaq mümkündür. **Hər kart üzrə kampaniya müddətində qazanıla biləcək maksimum məbləğ 10 AZN-dir.** Hər ödənişə görə qazanılacaq əlavə məbləğ aşağıdakı kimidir:
   - 1-ci 5 AZN və ya daha yuxarı NFC ödənişdə: 1 AZN hədiyyə
   - 2-ci 5 AZN və ya daha yuxarı NFC ödənişdə: 1 AZN hədiyyə
   - 3-cü 5 AZN və ya daha yuxarı NFC ödənişdə: 1 AZN hədiyyə
   - 4-cü 5 AZN və ya daha yuxarı NFC ödənişdə: 1 AZN hədiyyə
   - 5-ci 5 AZN və ya daha yuxarı NFC ödənişdə: 6 AZN hədiyyə (1+5 AZN)

5. Qeyd edək ki, NFC ödənişlər "iOS" əməliyyat sistemində dəstəklənmədiyi üçün "Apple" cihazları ilə kampaniyada iştirak mümkün deyil. NFC ödənişlər yalnız "Android" əməliyyat sistemində bəzi smartfonlarda keçərlidir. Kampaniyadan yararlana bilmək üçün cihazınızın NFC-ni dəstəklədiyindən əmin olmağınız xahiş olunur.

6. Kampaniya şərtlərinə uyğun gələn bütün müştərilər əlavə məbləğ qazanacaq. Əlavə məbləğ ödənişdən qısa müddət ərzində müştərinin NFC ödəniş etdiyi kartına mədaxil olunacaq.

7. Qazanılmış məbləğ müştəri tərəfindən istənilən əməliyyatda istifadə oluna bilər.

8. Kampaniya yalnız ölkə daxilində edilmiş əməliyyatlarda keçərlidir.

9. **Nümunə:** BirBank-da “Kapital Bank”a məxsus Mastercard kartı olan müştəri aşağıda verilmiş tarix və məbləğlərdə 6 NFC ödəniş edib. Hər NFC ödənişə görə müştərinin qazandığı əlavə məbləğ aşağıdakı kimidir:

| **Ödəniş** | **Ödəniş tarixi** | **Ödəniş məbləği** | **Qazanılan məbləğ** |
|---|---|---|---|
| 1-ci NFC ödəniş | 8 aprel 2021 | 18.35 AZN | 1.00 AZN |
| 2-ci NFC ödəniş | 25 aprel 2021 | 5.00 AZN | 1.00 AZN |
| 3-cü NFC ödəniş | 1 may 2021 | 8.99 AZN | 1.00 AZN |
| 4-cü NFC ödəniş | 14 may 2021 | 35.45 AZN | 1.00 AZN |
| 5-ci NFC ödəniş | 1 iyun 2021 | 7.99 AZN | 6.00 AZN |
| 6-cı NFC ödəniş | 3 iyun 2021 | 11.99 AZN | 0.00 AZN |